

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 76 (23.488)

21 may 2020-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ikinci sessiyasının çağırılması haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisinin

### Qərarı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 18-ci maddəsinin I hissəsini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

I. Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ikinci sessiyası 2020-ci il may ayının 23-də saat 11[00]-da Naxçıvan şəhərində çağırılsın.

II. Sessiyanın gündəliyinə aşağıdakı məsələlər daxil edilsin:

1. Naxçıvan Muxtar Respublikasının Baş nazirinin təyin edilməsi
2. “Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişikliklər edilməsi
3. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İntizam Komissiyasının seçilməsi

III. Sessiyanın iclasına aidiyyəti təşkilatların rəhbərləri və dövlət mətbuat orqanlarının nümayəndələri dəvət olunurlar.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 20 may 2020-ci il*

“İxrac ili” – 2020

## Muxtar respublikanın ixrac imkanlarının artırılması istiqamətində işlər davam etdirilir

***Müasir dövrdə dövlətin sosial-iqtisadi inkişafının əsasını təşkil edən əsas amillərdən biri də ixracdır. Bu səbəbdən xarici ticarət dövriyyəsinin həcminin davamlı olaraq genişləndirilməsi daim diqqət mərkəzində saxlanılır. Aktiv xarici ticarət hesabına əldə olunan müsbət saldo ölkənin valyuta ehtiyatlarının artmasına və iqtisadi təhlükəsizliyin təmin olunmasına imkan yaradır. Artıq bir neçə ildir ki, muxtar respublikanın xarici ticarət dövriyyəsində əldə olunan müsbət saldo uğurlu iqtisadi strategiyanın nəticəsidir. Bu istiqamətdə 2020-ci ilin yanvar-mart aylarında da müsbət tendensiya saxlanılmışdır.***

Muxtar respublikamızda sahibkarlığa göstərilən böyük diqqət və qayğının nəticəsi olaraq yerli xammala əsaslanan, rəqabətqabiliyyətli və ixracyönümlü məhsul istehsalı üzrə ixtisaslaşmış müəssisələrin yaradılması, mövcud istehsal müəssisələrinin yenidən qurulması istiqamətində aparılan uğurlu islahatlar bu sahənin sürətli inkişafına geniş imkanlar açmışdır.






Aparılan məqsədyönlü tədbirlərin davamı olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən muxtar respublikada 2020-ci ilin “İxrac ili” elan olunması ticarət əlaqələrinin genişlənməsinə, yüksəkkeyfiyyətli, beynəlxalq standartlara cavab verən yerli istehsal məhsullarının dünya bazarlarına çıxarılmasına və beləliklə, ixrac potensialının genişlənməsinə böyük stimul vermişdir.

İxracyönümlü məhsul və xidmətlərin xarici bazarlarda təşviqi məqsədilə beynəlxalq tədbirlərdə muxtar respublika ixracatçılarının iştirakının təmin edilməsi və ixrac üçün potensial və perspektivli sayılan dövlətlərdə müvafiq sərgilərin, forumların təşkili və digər təşviqat tədbirlərini gücləndirmək də əsas prioritetlərdəndir. Belə ki, 2020-ci ilin ötən dövründə 4 sahibkarlıq subyektinin 17 nümayəndəsi 3 beynəlxalq əhəmiyyətli tədbirdə iştirak etmiş, muxtar respublikada istehsal olunan ərzaq məhsulları Rusiya Federasiyasında keçirilən “ProdExpo – 2020”, Birləşmiş Ərəb Əmirliklərində keçirilən “Gulfood – 2020” sərgilərində nümayiş olunmuşdur. Adıçəkilən sərgilərdə “Made in Azerbaijan” vahid ölkə stendi altında muxtar respublikada istehsal olunan 133 çeşiddə məhsulun nümayişi təmin olunmuşdur.

Naxçıvan Muxtar Respublikasında iqtisadi inkişaf sürətləndikcə xarici ticarət əməliyyatlarında da ixrac meyilləri artmaqdadır. Xarici bazarlara çıxışın təmin edilməsində muxtar respublikada fəaliyyət göstərən şirkətlərə ixrac təşviqlərinin verilməsi, onlara xarici bazarlara çıxış üçün müxtəlif dəstək mexanizmlərinin tətbiqi dairəsi genişlənməkdədir.

Bu cür sistemli tədbirlər nəticəsində muxtar respublikada istehsal olunan məhsulların xarici bazarlara artmaqla iqtisadi əlaqələri daha da genişlənmişdir. Diyarımızın iqtisadi inkişafında ilk mərhələ keyfiyyətli məhsul istehsal etməklə əhalinin tələbatını ödəməkdən ibarət idisə, hazırkı mərhələ həmin məhsulların rəqabət qabiliyyətini artırmaqla ixracına nail olmaqdan ibarətdir. Qeyd etmək yerinə düşər ki, cari ilin ötən dövrü ərzində Gürcüstan, Türkiyə, ABŞ, İraq, Ukrayna, Əfqanıstan kimi ölkələrə vafli məhsulları, tütün məmulatları (siqaret), travertin, mərmər, mineral sular ixrac olunmuşdur.



Muxtar respublika əhalisinin ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlər sırasında əsas ərzaq məhsullarının keyfiyyətinə nəzarət edilməsi mühüm yer tutur. Bu məqsədlə qida məhsullarının ekspertizası üzrə beynəlxalq akkreditasiyadan keçmiş laboratoriyanın fəaliyyət göstərir. İxrac əməliyyatlarında tələb olunan bir sıra sertifikatlar da məhz buradan təmin edilir. Nazirliyin tabeliyində fəaliyyət göstərən “İstehlak Mallarının Ekspertizası Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyətinin Mərkəzi Qida Sınaq Laboratoriyasında cari ilin ötən dövründə, ümumilikdə, 756 halda laboratoriya təhlilləri aparılmış, həmçinin istehsal olunan məhsulların xarici bazarlara çıxarılması məqsədilə 38 mənşə sertifikatı verilmişdir.

Sahibkarların mütəmadi olaraq maarifləndirilməsi onlara texniki və metodik dəstək göstərilməsi istiqamətində İqtisadiyyat Nazirliyi tərəfindən mütəmadi seminar və treninqlər təşkil olunur. Məhsulların virtual məkanda təbliği, satışı şəbəkəsinin genişləndirilməsi, yeni məhsulların yaradılması, inkişaf etdirilməsi və digər bir çox sahədə lazımi dəstək göstərilir.

İxracın artırılmasına nail olmaq üçün qarşıda duran əsas istiqamət isə rəqabətqabiliyyətli və yüksəkkeyfiyyətli məhsulların istehsalını təşviq etmək, müəssisələrin mövcud potensialını inkişaf etdirmək, məhsulların daha geniş məkanda təbliğini təmin etmək və real sektorda dayanıqlı ixraca nail olmaqdan ibarətdir.

**Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti**

## Kompleks tikinti-quruculuq işləri aparılır

***Bu gün muxtar respublikamızın şəhər və rayonlarında genişmiqyaslı tikinti-quruculuq və abadlıq işləri aparılır, səliqə-sahman yaradılır. Görülən işlər şəhər, qəsəbə və kəndlərimizin simasının daha da yaxşılaşdırılmasına, baxımlı olmasına xidmət edir.***





Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Ordubad Rayon İdarəsindən aldığımız məlumata əsasən muxtar respublikamızın səfalı bölgələrindən biri olan Ordubad rayonunda kompleks abadlıq və quruculuq işləri cari ildə də uğurla davam etdirilir.

Ordubad şəhərində yeni quruculuq ünvanlarından biri ictimai yaşayış binasıdır. Zirzəmi ilə birlikdə 8 mərtəbədən ibarət olan bu binada 28 mənzil istifadəyə veriləcək. Yaşayış binasında tikinti işləri artıq başa çatıb, binanın fasadı üzlənib, həyətdə abadlıq işləri görülür. Tikinti işlərini Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Ordubad Rayon İdarəsinin inşaatçıları həyata keçiriblər.

Muxtar respublikamızda həyata keçirilən quruculuq tədbirləri elm və təhsil sahələrini də əhatə edir, tədrisin keyfiyyətini daha da yaxşılaşdırmaq üçün geniş imkanlara malik müəssisələr tikilərək, yenidən qurularaq və ya təmir-bərpa edilərək istifadəyə verilir. Hazırda Ordubad şəhər 1 nömrəli tam orta məktəbin binasında Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sifarişi ilə “Gəmiqaya Holdinq”in inşaatçıları tərəfindən təmir və yenidənqurma işləri həyata keçirilir. 358 şagird yerlik olacaq təhsil ocağında müasir sinif otaqları, hərbi kabinə, kimya, biologiya, fizika laboratoriyaları, şahmat sinfi, kitabxana və idman zalı yerləşəcək. Məktəbdə internetə çıxışı olan kompüter və elektron lövhə quraşdırılacaq, kitabxana fondu zənginləşdiriləcək. Binanın həyətində abadlıq işləri aparılacaq.

Bu gün muxtar respublikamızda həm də çoxəsrlik tarixi keçmişimizin və dini-mənəvi dəyərlərimizin ifadəsi olan abidələrin, ziyarətgahların tikinti və bərpası da diqqətdə saxlanılır. Hazırda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən Ordubad şəhərindəki qədim Cümə məscidində bərpa işləri aparılır. Sahəsi 890 kvadratmetr olacaq məsciddə axund otağı, qadın və kişi ibadət zalları və digər otaqlar yerləşəcək. Məscidin həyətində dəstəmaz yeri yaradılacaq, geniş abadlıq işləri aparılacaq, müasir istilik, işıqlandırma və suvarma sistemləri qurulacaq. Bərpa zamanı abidənin memarlıq quruluşu saxlanılacaq, dindarlar üçün lazımi şərait yaradılacaq.

Rayonun digər quruculuq ünvanları Nüsnüs və Əndəmic kəndləridir. Nüsnüs kəndində kənd və xidmət mərkəzləri tikilir, məktəb binası əsaslı şəkildə yenidən qurulur. Zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət olacaq məktəb binası 416 şagird yerlik nəzərdə tutulub. Məktəbdə kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə, kompüter otaqları, kitabxana, idman zalı və bufet fəaliyyət göstərəcək. Kənd mərkəzində isə icra nümayəndəliyi, ATS, poçt, bələdiyyə, Yeni Azərbaycan Partiyası Nüsnüs kənd ərazi ilk təşkilatı, baytarlıq məntəqəsi, mədəniyyət evi, kitabxana, polis sahə məntəqəsi və həkim ambulatoriyası üçün müasir şərait yaradılır. Bu obyektdə binanın özülünün dəmir-beton işləri tamamlanıb.

Əhaliyə nümunəvi ticarət və məişət xidmətləri göstərilməsi üçün kənddə xidmət mərkəzi də inşa olunur. Yuxarı Əndəmic kəndindən Nüsnüsədək olan kəndarası, həmçinin kənddaxili avtomobil yollarının da əsaslı surətdə yenidən qurulması işləri davam etdirilir.

Rayonu əhatə edən genişmiqyaslı quruculuq tədbirlərindən Əndəmic kəndinə də pay düşüb. Bu yaşayış məntəqəsində kənd və xidmət mərkəzlərinin tikintisi davam etdirilir. üç mərtəbədən ibarət olacaq kənd mərkəzində hazırda beton-qəlib işləri görülür. Xidmət mərkəzində isə hörgü işləri artıq başa çatıb.

Qeyd edək ki, Ordubad şəhərinin daxili avtomobil yolları da yenidən qurulur.

**Xəbərlər şöbəsi**

# Tanrı heç bir torpağı sahibsiz etməsin

## Muxtar respublikada aparılan meliorasiya-irriqasiya işləri torpağa əsl sahiblik nümunəsidir

***Əvvəllər Şərur və ya Sədərək istiqamətinə nə vaxt yolum düşsə, Duzdağ ərazisindən tutmuş Kəngərli rayonunun Qıvraq qəsəbəsinə qədər ərazilərdə yolboyu mənzərələr ürəyimi sıxırdı. Yazı, yaşıllığı sevən biri olaraq quru təpəciklər, cadarlaşmış qupquru düzənliklər mənə, sanki ürək ağrısı bəxş edirdi. Düşünürdüm ki, axı torpaq ruzi-bərəkət mənbəyidir. İnsan və canlılar üçün hava qədər torpaq da həyati önəm daşıyır. Qidalanmağımız və sağlam yaşamağımız üçün nə varsa, torpaq öz qoynunda yetişdirir. Amma su olmadıqdan sonra torpağın nə səxavəti?!***



Qısa bir zaman sonra isə mənzərə tamam dəyişdi. Son bir neçə ildə baş verən köklü dəyişikliklər isə mənim az öncə qeyd etdiyim düşüncələrimi də alt-üst etdi. Belə qənaətə gəldim ki, Tanrı heç bir torpağı, sahibsiz etməsin. O torpağın ki sahibi, qədirbiləni var, deməli, onun sərvəti də aşıb-daşacaq, bərəkəti üzə güləcək. İndi mənim üzümə gülən sözügedən həmin ərazilər kimi. Artıq nə zaman qeyd etdiyim rayonlara yolum düşsə, həmin yerləri gözüdolusu seyr edirəm. Yol kənarlarındakı yaşıllıqları, balaca fidanların mehin avazına qoşulan rəqsini, "gələcəyə daha ümidlə bax" sədası ilə gözoxşayan taxıl zəmilərini seyr etdikcə qəlbim fərəh hissi ilə dolur. Necə deyərlər, artıq bu yerlərə könülxoşluğu ilə baxır, ürəyimdə bu gözəllikləri yaradanlara min alqış, dualar yağdırıram.

Məlumdur ki, muxtar respublika ərazisinin böyük bir qismi əkin üçün yararlı olmayan dağlıq, bəzi hallarda şoranlaşmış və quraq torpaqlardır. Buna səbəb isə quru kontinental iqlim şəraiti və suvarma imkanlarının əlverişli olmamasıdır. Ancaq müstəqillik illərindən başlayaraq həyata keçirilən aqrar islahatlar, genişmiqyaslı meliorasiya və irriqasiya tədbirləri sübut etdi ki, zəhmət çəkilən yerdə bərəkət də olar, bolluq da. Tər tökülən hər qarış torpaqdan zər əldə edərsən. Son illər ardıcıl olaraq istifadəyə verilən yeni suvarma şəbəkələri hesabına minlərlə hektar əkinəyararsız





torpaqlar indi bərəkət mənbəyinə, əkinçilərin ruzi yerinə çevrilib.

Ümummilli liderimiz Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə meliorasiya və su təsərrüfatı sahəsi böyük inkişaf yolu keçib. Ötən əsrin 70-80-ci illərində Naxçıvan Muxtar Respublikasında yeni meliorasiya və irriqasiya sistemləri yaradılıb, Araz və Arpaçay kimi iritutumlu su anbarları tikilib. Bütün bunlar isə ötən əsrin 90-cı illərinin əvvəllərində ölkəmizdə ilk aqrar islahatlara Naxçıvandan başlanmasına geniş imkanlar açıb. 1992-ci ildə Culfa rayonunun Şurud və Gal kəndlərindəki torpaqların kəndlilərə verilməsi ölkəmizdə uğurlu aqrar islahalatların başlanğıcını qoyub. Daha sonra ümummilli liderin təşəbbüsü və rəhbərliyi ilə hazırlanan proqram əsasında torpaq islahatlarına başlanılıb. 1993-cü ildə ulu öndərin ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışından sonra isə meliorasiya və su təsərrüfatı sistemində daha geniş islahatlar həyata keçirilib, bu sahədə zəngin qanunvericilik bazası yaradılıb. Bunun nəticəsidir ki, günümüzdə muxtar respublikada meliorasiya və irriqasiya sistemlərinin təkmilləşdirilməsi istiqamətində ardıcıl tədbirlər görülür.

***"Hər bir ölkədə ərzaq təhlükəsizliyini təmin etmək üçün, ilk növbədə, kənd təsərrüfatı inkişaf etdirilməlidir. Aydın məsələdir ki, kənd təsərrüfatının inkişafı da müasir meliorasiya və irriqasiya sistemləri olmadan mümkün deyil"***, – deyən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun müvafiq fərman və sərəncamları ilə təsdiq edilmiş dövlət proqramlarının icrası nəticəsində suvarma sistemləri yenidən qurulub, torpaqların meliorativ vəziyyəti yaxşılaşdırılıb, mövcud su resurslarından istifadə imkanları genişləndirilib və suvarma drenaj şəbəkələrinin inkişaf etdirilməsi sahəsində mühüm tədbirlər həyata keçirilib.

Ötən dövrdə tutumu 100 milyon kubmetr olan Heydər Əliyev Su Anbarının istifadəyə verilməsi ilə Babək və Culfa rayonlarında 7 min hektara yaxın torpaq sahəsi əkin dövriyyəsinə daxil edilib. Bütövlükdə isə həmin su anbarı ilə 17 min hektara yaxın torpaq sahəsi ilboyu fasiləsiz su ilə təmin olunur. 150 milyon kubmetr gücündə olan Arpaçay su dəryaçası da əsas suvarma mənbələrindən biri kimi böyük əhəmiyyətə malikdir. Dəryaçada aparılan əsaslı təmir və yenidənqurma işləri minlərlə hektar ərazinin su təchizatına müsbət təsir göstərib. Su anbarından çəkilən Sağ sahil və Sol sahil kanalları vasitəsilə Şərur, Sədərək və Kəngərli rayonlarında 18 min hektara yaxın torpaq sahəsi suvarılır. Hazırda muxtar respublikada ümumi həcmi 303,5 milyon kubmetr olan 32 su anbarı vardır.

İritutumlu su anbarlarının mövcudluğu həm də günün tələbi olan suvarma şəbəkələrinin qurulmasına şərait yaradır ki, bu da kilometrlərlə uzaqda yerləşən quru torpaqların "susuzluğunu" aradan qaldırıb. Bu işlərin davamı kimi ötən dövrdə Uzunoba Su Anbarından Kəngərli rayonuna 32,4 kilometr uzunluğunda boru xətti çəkilib, yeni nasos stansiyası tikilib. Nəticədə, yüzlərlə hektar torpaq sahəsini suvarmaq imkanı yaranıb. Bununla yanaşı, Böyükdüz və Xok kəndlərinin torpaq sahələrinin suvarma suyu ilə təminatını yaxşılaşdırmaq, su itkilərini aradan qaldırmaq üçün Araz çayındakı nasos stansiyasından 16,6 kilometr uzunluğunda yeni təzyiqli boru xətti çəkilib. Sədərək rayonunda əkinəyararlı torpaqların dayanıqlı suvarma suyu ilə təmin olunması üçün tikilən yeni nasos stansiyası hesabına uzun müddət əkilməyən 1500 hektar torpaq sahəsi də yenidən əkin dövriyyəsinə qatılıb. Bu imkanlardan istifadə edərək su itkisinin qarşısını almaq, suvarmanı yaxşılaşdırmaq, torpaq sahələrini yeni əkin dövriyyəsinə daxil etmək məqsədilə yeni qapalı suvarma şəbəkələri tikilir, drenaj xətləri çəkilir. Ümumiyyətlə, son illərdə Babək, Culfa və Kəngərli rayonlarının, ümumilikdə, 4500 hektara yaxın ərazisində yeni qapalı suvarma şəbəkəsi tikilib. Ötən ilin sonunda isə Şahbuz rayonunun Türkeş kəndi ərazisindəki 350 hektara yaxın pay torpaqlarını suvarmaq üçün qapalı suvarma şəbəkəsi istifadəyə verilib. Qapalı suvarma şəbəkələrinin tikintisi zamanı ərazilərin relyefi nəzərə alınıb ki, bu da suyun əkin sahələrinə itkisiz və öz axını ilə çatdırılmasına imkan verir.

Bu yaxınlarda isə yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması məqsədilə yeni bir layihəyə start verilib. Belə ki, layihə əsasında Araz Su Anbarının yaxınlığında eni 8, uzunluğu 100 metr olan körpü tikiləcək və körpünün üzərində biri ehtiyat olmaqla, 2 nasos quraşdırılacaqdır. Hər birinin gücü 1000 kilovat-saat olan nasosların su sərfi saniyədə 1500 litr olacaqdır. Nasoslar suyu uzunluğu 2 kilometr, diametri 1000 millimetr olan təzyiqli boru xətti ilə ikinci nasos stansiyasına vuracaqdır. İkinci nasos stansiyası üçün ərazidə yeni bina və suqəbuledici hovuz inşa olunacaq, hər birinin gücü saniyədə 850 litr olan 3 nasos quraşdırılacaqdır. Nasoslardan biri ehtiyat üçün nəzərdə tutulub. Bu nasos stansiyasından su yeni çəkiləcək 3,8 kilometrlik təzyiqli boru xətti ilə həcmi 4 min kubmetr olan 6 çıxışlı paylayıcı hovuza vurulacaq və öz axını ilə torpaq sahələrinə veriləcəkdir. Yeni nasos stansiyaları istifadəyə verildikdən sonra Kəngərli rayonunda və Naxçıvan şəhərində 14 min hektar yeni torpaq sahəsi əkin dövriyyəsinə qatılacaq, 5 min hektar torpaq sahəsinin isə su təminatı yaxşılaşdırılacaqdır.

Bəhs olunduğu kimi, qapalı suvarma şəbəkələri bu gün muxtar respublikada əkin sahələrinin suvarılması üçün böyük rol oynayır. Nə üçün qapalı suvarma şəbəkələri? Çünki bu işdə "örtülü bazar dostluğu pozmur". Eyni zamanda böyük vəsait və zəhmət hesabına başa gələn qapalı suvarma şəbəkələrinin iqtisadi səmərəsi böyükdür. Bu tip hidroqurğuların tikilməsi mövcud su ehtiyatlarından səmərəli istifadəyə şərait yaradır. Mənbədən daxil olan su kilometrlərlə uzanan borular vasitəsilə həyat verəcəyi torpaqlara itkisiz gedib çatır. Bu da suvarmanın təkmilləşdirilməsinə, istifadəsiz qalmış torpaqların əkin dövriyyəsinə daxil edilməsinə, nəticədə, iqtisadiyyatın inkişafına, əhalinin sosial rifah halının daha da yaxşılaşmasına səbəb olur.

Bir məqamı da xüsusi vurğulamaq yerinə düşər ki, muxtar respublikada həyata keçirilən bu cür tədbirlər hidroresurslar vasitəsilə əhalinin keyfiyyətli suya olan tələbatının ödənilməsinə də öz mühüm töhfəsini verib. Bu xüsusda diyarımızda istifadəyə verilən su anbarları və sutəmizləyici qurğular böyük əhəmiyyət kəsb edir. 2013-cü ildə Naxçıvan Şəhər Su Anbarı və Sutəmizləyici Qurğular Kompleksinin, Culfa və Şahbuz rayonlarında analoji qurğuların istifadəyə verilməsi bu sahədə atılan əhəmiyyətli addımlardır.

Bu sırada muxtar respublikamızda həm də tarixi abidə hesab olunan kəhrizləri mütləq qeyd etməliyik. Naxçıvanın kəhrizlərlə bağlı ənənələri beynəlxalq qurumlar tərəfindən də nümunə kimi göstərilir. Hazırda diyarımızda 385 kəhriz var. Həmin kəhrizlərin 80 faizi işlək vəziyyətdədir. Təkcə ötən il Ordubad, Şahbuz və Kəngərli rayonlarında 10-dan çox kəhriz təmir olunub. Sadaladığımız bu ardıcıl və məqsədyönlü tədbirlər sayəsində torpaqların suvarma şəraiti yaxşılaşdıqca diyarımızın yaşıl örtüyü də getdikcə genişlənir. Müqayisə üçün qeyd edək ki, 1995-ci ilə qədər diyarımızda yaşıllıqların sahəsi 0,6 faiz təşkil edirdisə, günümüzdə bu göstərici 20 faizi ötüb. Torpaqların əkinəyararlı hala salınması, yaşıllıqların artırılması isə təkcə ekoloji baxımdan deyil, həm də ərzaq təhlükəsizliyinin etibarlı təminatına mühüm töhfə verir. Əkin sahələrinin genişləndirilməsi muxtar respublikada 70 faizlik göstəriciyə malik olan kənd əhalisinin məşğulluğuna şərait yaratmaqla yerli istehsal məhsullarının payının da hər ötən il artmasına şərait yaradır.

Bir sözlə, torpağa münasibət heç də boş yerə dəyişməyib. Əvvəla, kəndli şoranlaşmış, duzdan "bənizi ağarmış" torpaqda necə əkin apara bilərdi? Su da ki bir gün olurdu, bir ay yox. Min bir əziyyətlə yetişdirilən məhsul suvarma suyu çatışmazlığı ucbatından əkinçinin, torpaq sahibinin gözü qarşısında məhv olurdu. Təbii ki, zəhmətin, çətinliklərin müqabilində əkinçiyə qalan gəlir əlinin qabarı olurdu. Lakin aqrar sahəyə göstərilən diqqət və qayğı, yüksək vəsait hesabına reallaşdırılan meliorasiya və irriqasiya layihələri çox keçmədi ki, bu sahədə əməlli-başlı canlanma yaratdı. Sahibkarlığın inkişafına göstərilən dövlət dəstəyi, kənd təsərrüfatı məhsulları istehsalçılarına güzəştli şərtlərlə kreditlərin verilməsi, onların yüksəkkeyfiyyətli toxumla, gübrə və texnika ilə təmin olunması, suvarma sistemlərinin təkmilləşdirilməsi və yenidən qurulması kəndlini əsl iş yerinə – torpağa qaytardı. Əvvəlki illərin ağrı-acı dolu çətinliklərini göz önünə gətirən torpaq mülkiyyətçiləri indi daha həvəslə çalışır, geniş ailə təsərrüfatları yaradırlar.

Ata-babalarımız nahaq yerə "su həyatdır", – deməyiblər. Harada su varsa, orada gözəllik, sağlamlıq, təmizlik, bolluq-bərəkət vardır. Doğrudan da, vaxtilə sürünənlərə yuva olan, cadar-cadar torpaqların bugünkü yaşıl simasını görəndə insanın könlü açılır. İşləmək, əzmkarlıq ruhu yüksəlir. Buna görə də son illər muxtar respublikada əkinçiliyə marağın artması bir çox amillərlə bağlı olsa da, bunun daha çox suvarma sistemlərinin qurulması ilə əlaqədar olduğunu düşünürəm. İndi yüzlərlə kilometr məsafədə uzanan bu düzənliklər qoynunda taxıl zəmiləri, geniş kartof sahələri, tütün və üzüm plantasiyaları, bostan və meyvə bağları göz oxşayır. Bu sahələrin hər biri vaxtlı-vaxtında suvarılır, bol məhsul hasil edilir.

Naxçıvan şəhərindən çıxıb Kəngərli, Şərur, Sədərək yollarından hansısa biri istiqamətinə yolunuz düşərsə, ayaq saxlayıb yolun kənarlarında salınan ağacların növrağına nəzər salın. Bir düşünün, yolboyu kilometrlərlə uzanan ağacların hər biri qapalı suvarma sistemlərindən körpə övlad kimi damla-damla bəslənərək boy atıb ərsəyə gəlməyibmi? Ən balaca fidanın belə, dibinə həyat mənbəyi – su damlayır. Bu yaşıllıqlar da göstərilən qayğıdan "ilhamlanaraq" bol məhsul verir, dükan-bazarları, süfrələri keyfiyyətli nemətlərlə təmin edir, əsgərlərimizə göndərilən sovqata çevrilir.

***P.S.*** *Etiraf etməliyik ki, bu gün sosial, iqtisadi və ekoloji sahədə təsirləri getdikcə daha çox hiss olunan qlobal su problemi ilə üz-üzə olan planetin sakinləriyik. Bu günə qədər sudan planlaşdırılmamış və izafi şəkildə istifadə dünyanın bir çox şirin su ekosistemlərinə ziyan vurub. Bütün bunlar isə içməli və suvarma suyu üzrə balansı pozmağa başlayıb. Əhali artımı ilə çoxalan qida və enerji tələbatı, iqlim dəyişikliyinin hidrosistemlərə təsirini də bunun üzərinə gəldikdə gələcəkdə daha çox risklərlə qarşılaşacağımız qaçılmazdır. Buna görə su ehtiyatlarının yaxşı idarə olunması və davamlılığı bu əsrin ən vacib məsələlərindən biridir. Bu mənada, muxtar respublikada meliorasiya sistemlərinin təkmilləşdirilməsi istiqamətində reallaşdırılan layihələr yüz illər sonraya hesablanmış sosial-iqtisadi tədbirlərdir.*

**✍ Gülcamal TAHİROVA**

***Məqalə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun elan etdiyi yaradıcılıq müsabiqəsinə təqdim edilir.***

***Ölkəmizdə uşaqlara qayğının dövlət siyasətinin əsas istiqaməti kimi müəyyənləşdirilməsi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bu gün dahi şəxsiyyətin əsasını qoyduğu dövlət uşaq siyasəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Uşaqların sağlam böyüməsi, yüksək səviyyədə təhsil alması, layiqli vətəndaş kimi formalaşması, asudə vaxtlarının səmərəli təşkil olunması diqqət mərkəzində saxlanılır. Muxtar respublikada da bu istiqamətdə ardıcıl tədbirlər görülür, sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiyasına böyük həssaslıqla yanaşılır.***

*Dövlət proqramı necə icra olunur*

## Sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası diqqət mərkəzindədir

Muxtar respublikamızda bu kateqoriyadan olan uşaqların təhsil aldığı müəssisələrin maddi-texniki bazasının möhkəmləndirilməsi və onların inklüziv təhsilə cəlbi ilə bağlı mühüm işlər görülməkdədir. Bu sahədə kompleks tədbirlərin həyata keçirilməsində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın mühüm rolu vardır.

Proqramda 25 bənddən ibarət tapşırıqlar nəzərdə tutulmuş, 2 bəndin icrası başa çatdırılmışdır. Belə ki, Naxçıvan Regional İnformasiya Mərkəzində diqqət zəifliyi olan, hiperaktiv uşaqlar üçün təlim-bərpa otağının və fərdi, ailə, uşaq psixoloji məsləhətinin təşkili məqsədilə dəstək xidmətinin yaradılması başa çatdırılmışdır. Təlim-bərpa otağı müvafiq avadanlıqlarla, o cümlədən təlim vəsaitləri və diqqəti bərpa edən xüsusi avadanlıqla təmin olunmuşdur. Həmin avadanlıq vasitəsilə təşkil edilən sakitləşdirici və fəallaşdırıcı məşğələlər zamanı kompüterin monitorunda hər seansdan sonra uşağın diqqətində baş verən dəyişikliyi müşahidə etmək mümkündür. Psixoloji dəstək xidmətinin əsas vəzifəsi psixoloji problemləri olan uşaqların reabilitasiyası üçün rəyin və bu kateqoriyadan olan uşaqların valideynlərinə tövsiyələrin verilməsidir. Xidmətin təşkil edilməsi mərkəzə müraciət edən hər bir uşaqla bağlı konsultasiya işinin aparılması, onun psixoloji sağlamlıq diaqnozuna uyğun fərdi proqramın hazırlanması, reabilitasiyaya cəlb edilməsi, valideynləri və ailə üzvləri ilə maarifləndirici söhbətlər aparılması üçün geniş imkanlar yaradır.

Dövlət proqramının təsdiq edildiyi tarixdən etibarən hər il iyun-avqust və sentyabr-noyabr aylarında sağlamlıq imkanları məhdud uşaqların asudə vaxtlarının səmərəli təşkili məqsədilə tədbirlər keçirilir və tədrisə cəlb edilmiş bu kateqoriyadan olan aztəminatlı uşaqlar məktəbli geyimi, ləvazimatları, eləcə də qış geyimi ilə təmin edilir.

Proqramın digər bəndlərinin icrası ilə bağlı ötən dövrdə işlər davam etdirilmiş, muxtar respublikada məktəbəqədəryaşlı sağlamlıq imkanları məhdud uşaqlar barəsində yaradılmış məlumat bazası mütəmadi olaraq yenilənmişdir. Eyni zamanda bu kateqoriyadan olan uşaqların təhsilə cəlbi onlarla mədəni-kütləvi iş aparılmasına və reabilitasiya prosesinin səmərəliliyinə şərait yaradır. Bu sahədə məktəbəqədər təhsil müəssisələri də önəmli rol oynayır. Uşaqlar həmin müəssisələrdə sağlamlıq imkanları nəzərə alınaraq ilkin biliklərə yiyələnir və onların fiziki tərbiyəsi ilə bağlı işlər görülür. Bu məqsədlə dövlət proqramında sağlamlıq imkanları məhdud uşaqların əqli və fiziki potensialları nəzərə alınmaqla məktəbəqədər təhsil müəssisələrinə cəlb edilməsi ilə bağlı tapşırıq müəyyən olunmuşdur. Ötən dövrdə həmin sosial kateqoriyadan olan uşaqlardan biri Naxçıvan şəhər 1 saylı, digəri isə Şərur şəhər uşaq bağçasına cəlb edilmişdir.

Muxtar respublikamızda sağlamlıq imkanları məhdud uşaqların sosial müdafiəsinin gücləndirilməsi məqsədilə həyata keçirilən tədbirlər onların cəmiyyətə daha sağlam inteqrasiya olunması baxımından xüsusi önəm kəsb edir. Bu sahədə Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzinin xüsusi rolu vardır. Mərkəzdə müasir psixi-pedaqoji üsullardan istifadə edilir, uşaqların valideynləri ilə maarifləndirici söhbətlər aparılır. Hazırda



mərkəzdə 9 sağlamlıq imkanları məhdud uşağa xidmət göstərilir. Onlardan 1-i daun sindiromu, 1-i ceksontipli qıcolmalar, 2-si autizm, 3-ü anadangəlmə hidrosefaliya, 1-i əqli zəiflik, imbesillik, 1-i isə katarakta əməliyyatından sonra gözdə zəiflik diaqnozu ilə yerləşdirilmişdir.

Sağlamlıq imkanları məhdud uşaqların mövcud potensialları nəzərə alınaraq ümumtəhsil müəssisələrinə cəlb edilməsi prosesi də davam etdirilmiş, Naxçıvan şəhər 11 nömrəli tam orta məktəbdə 1, Gözdən Əlil Uşaqlar üçün Xüsusi İbtidai Məktəbdə 10 uşaq tədrisə cəlb olunmuşdur. Buraxılış imtahanlarından azad edilmələri üçün 20 sağlamlıq imkanları məhdud uşağın epikrizləri Dövlət İmtahan Mərkəzinin Naxçıvan Muxtar Respublikası Regional Bölməsinə göndərilmişdir.

Muxtar respublikada əqli, fiziki imkanları ümumtəhsil müəssisələrində təhsil almağa imkan verən və hərəkət qabiliyyətinin məhdudluğu səbəbindən təhsil ala bilməyən sağlamlıq imkanları məhdud uşaqların distant tədrisə cəlbi sistemli xarakter almışdır. Bu məqsədlə 2020-ci ilin ötən dövründə hərəkət qabiliyyəti məhdud 1 uşaq məktəbli forması və ləvazimatları ilə təmin edilərək distant tədrisin 1-ci sinfinə qəbul olunmuşdur. Həmin kateqoriyadan olan 12 uşağın distant tədrisi davam edir.

Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının etibarlı müdafiəsi sahəsində Nazirlər Kabineti yanında Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiyanın fəaliyyəti xüsusilə qeyd olunmalıdır. Sağlamlıq imkanları məhdud uşaqların tədrisə cəlb edilməsi ilə bağlı komissiya tərəfindən aparılan işlər böyük əhəmiyyətə malikdir. 2020-ci ilin ötən dövründə də komissiyanın monitorinq qrupu tərəfindən sağlamlıq imkanları məhdud uşaqların tədrisə cəlb edilməsi məqsədilə Naxçıvan şəhər 2 nömrəli uşaq bağçası və Sədərək rayon 2 nömrəli tam orta məktəbdə monitorinqlər aparılmışdır.

2020-ci ilin ötən dövründə muxtar respublikada 3 sağlamlıq imkanları məhdud uşaq musiqi məktəblərinə, 1 uşaq rəqsə, digəri isə məktəbdənkənar dərnəyə, 20 uşaq bacarıq və maraqları nəzərə alınmaqla müxtəlif gəzintilər, əyləncə tədbirləri və idman yarışlarına cəlb edilmişdir. 26 fevral – Xocalı soyqırımı və 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə keçirilən tədbirlərdə sərgilər təşkil olunmuş və sağlamlıq imkanları məhdud uşaqların 7 əl işi nümayiş etdirilmişdir.

Sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası ilə bağlı müasir dövrümüzün qabaqcıl texnoloji imkanlarından istifadənin genişləndirilməsi mühüm məsələlərdəndir. Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin fəaliyyətinin də əsas məqsədi muxtar respublikada yaşayan sağlamlıq imkanları məhdud şəxslərin informasiya texnologiyaları vasitəsilə sosial reabilitasiyasını həyata keçirməkdən ibarətdir. Ötən dövrdə mərkəzdə fəaliyyət göstərən bütün bölmələrə 115, defektoloji bölmənin Şərur rayon filialına 21, Ordubad rayon filialına isə 23 olmaqla, ümumilikdə, 159 sağlamlıq imkanları məhdud uşaq cəlb edilmişdir. Mərkəzdə bu kateqoriyadan olan 18 yaşınadək uşaqlardan ibarət musiqi qrupunun və rəqs qrupunun fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində işlər görülmüş, musiqi terapiyası otağına 28 uşaq cəlb edilmiş, xor musiqi kollektivi yaradılmışdır. Ümumilikdə, mərkəzin defektoloji bölməsinin təlim məşğələlərində 76, kinekt oyunlar otağında 26, məhdud fiziki imkanlıların kompüter kurslarında 29, əmək terapiyası otağında 29, təlim-bərpa otağında 7, psixoloji dəstək xidmətində isə 18 sağlamlıq imkanları məhdud uşaq təhsilini davam etdirmişdir.

İdman bu sosial kateqoriyadan olan uşaqların reabilitasiyasında mühüm vasitələrdən biridir. Dövlət proqramında müəyyən edilmiş tapşırıqların icrası istiqamətində Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyasının Culfa rayon bölməsində 9 sağlamlıq imkanları məhdud uşaq idmanla məşğul olmağa başlamışdır.

Ötən dövrdə sağlamlıq imkanları məhdud uşaqların istedadlarının aşkara çıxarılmasına, asudə vaxtlarının səmərəli təşkilinə şərait yaratmaq məqsədilə də tədbirlər davam etdirilmiş, "20 Yanvar faciəsi", "Şəhidlərimiz daim qəlbimizdədir", "Xocalı faciəsi" adlı şeir, "Ana dili günü" ilə bağlı inşa yazı, "Xocalı soyqırımı" adlı rəsm müsabiqələrində uşaqların iştirakı təmin edilmişdir. "Saat meydanı" turistik istirahət mərkəzində 5 mart – Bədən Tərbiyəsi və İdman Gününə həsr olunmuş "İdman festivalı"nda bu kateqoriyadan olan uşaqların da iştirakı təmin olunmuşdur. İstedadlı şagirdlər arasında keçirilən Naxçıvan Muxtar Respublikası Fənn Olimpiadasında sağlamlıq imkanları məhdud şagirdlər də iştirak etmiş, qaliblər Təhsil Nazirliyi tərəfindən diplom və hədiyyələrlə mükafatlandırılmışdır.

Muxtar respublikanın kütləvi informasiya vasitələrində sağlamlıq imkanları məhdud uşaqların təhsili və sosial reabilitasiya tədbirləri ilə bağlı maarifləndirici məlumatların verilməsi davam etdirilmişdir. "Şərq qapısı" və digər mətbuat orqanlarında silsilə məqalələr dərc olunmuş, Naxçıvan Dövlət Televiziyasında rəngarəng verilişlərlə yanaşı, "Sosial həyat", "Ümid işığı", "Təməl" verilişləri və "Özünü kəşf et" adlı videoçarxlar hazırlanaraq efirə təqdim olunmuşdur. Naxçıvan Dövlət Radiosunda bu mövzuda "Ailə və uşaq", "Sosial həyat", "Həyat eşqi" proqramları hazırlanmış, "Günə başlarkən" musiqili informasiya proqramında və "Xəbərlər" proqramında süjetlər efirə təqdim edilmişdir. Sosial şəbəkələrdə bu kateqoriyaya aid istedadlı uşaqların həyat və yaradıcılıq fəaliyyətini əks etdirən 4 qısametrajlı videoçarx yayımlanmışdır.

*Dövlətin sağlamlıq imkanları məhdud uşaqlarla bağlı apardığı məqsədyönlü və humanist siyasət ictimai maraqların müdafiəsinə yönəlmişdir. Çünki bu kateqoriyadan olan uşaqlar ictimaiyyətin daxilindən çıxmış və onların hərtərəfli müdafiəsi ictimaiyyətin maraqlarının dövlət tərəfindən təmin olunması deməkdir. "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nda sağlamlıq imkanları məhdud uşaqlarla bağlı qarşıya qoyulan vəzifələr bundan sonra da diqqətdə saxlanılacaq, müvafiq tədbirlər davam etdiriləcəkdir.*

**"Şərq qapısı"**

## Naxçıvan Dövlət Universitetində yeni fakültələr yaradılıb



Naxçıvan Dövlət Universitetinin fakültə və kafedralarında struktur dəyişikliyi ilə əlaqədar onlayn müşavirə keçirilib. Tədbirdə giriş sözü ilə çıxış edən rektor Elbrus İsayev ali təhsil ocağının mövcud imkanlarını dəyərləndirib. Bildirilib ki, yaradılan müasir tədris şəraiti, hər fakültənin ayrıca tədris binasında fəaliyyət göstərməsi müvafiq ixtisasların tədrisini günün tələbləri səviyyəsində qurmaq imkanı yaradır. Ali təhsil ocağına tələbə qəbulunun ilbəil artan dinamika ilə yüksəlməsi və yeni ixtisasların açılması fakültə və kafedraların yenidən formalaşdırılması zərurətini ortaya çıxarır. Eyni zamanda yeni dəyişiklik ixtisasların təsnifata uyğun qurulmasını nəzərdə tutur.

Vurğulanıb ki, əvvəlcədən aparılan bölgüyə əsasən bəzi uyğun olmayan kafedralar formalaşdırılıb ki, bu da dərs bölgülərinin aparılmasına və tədrisin təşkilinə müəyyən çətinliklər yaradıb. Diqqətə çatdırılıb ki, elm sahələrinə və fənlərin tədrisinin keyfiyyətinin yüksəldilməsinə hesablanmış struktur dəyişikliyi professor-müəllim heyətinin ixtisaslarına uyğun komplektləşdirilməsinə imkan verəcək. Qəbul edilən qərara əsasən Beynəlxalq münasibətlər və xarici dillər, Sosial idarəetmə və hüquq fakültələrinin bazasında 2 fakültə – Beynəlxalq münasibətlər və hüquq, Xarici dillər fakültələri formalaşdırılıb. İqtisad fakültəsi ləğv edilərək İqtisadiyyat və idarəetmə fakültəsi yaradılıb.

Beynəlxalq münasibətlər və hüquq fakültəsi özündə Hüquq fənləri, Fəlsəfə və sosial iş, Beynəlxalq münasibətlər, İqtisadiyyat və idarəetmə fakültəsi İqtisadiyyat, Mühasibat uçotu və maliyyə, Dünya iqtisadiyyatı və menecment, Bələdiyyə və turizm, Xarici dillər fakültəsi isə İngilis dili və metodika İngilis dili və tərcümə, Rus və Şərq dilləri, Roman-german dilləri kafedralarını formalaşdırıb.

Tibb fakültəsində də ixtisas uyğunluğu nəzərə alınaraq Əczaçılıq və biokimya, Stomatologiya, Ümumi təbabət və kliniki fənlər, Təməl tibb fənləri kafedraları yaradılıb. Yeni kafedralarda ixtisas sahələrinə uyğun olaraq professor-müəllim heyəti formalaşıb.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin xüsusi diqqət və qayğısı sayəsində ali təhsil ocağında müasir maddi-texniki bazaya malik yeni tədris korpusları tikilir, mövcud olanlar isə yenidən qurularaq müəllim və tələbələrin ixtiyarına verilir. Xarici dillər fakültəsi üçün də yenidən qurulan və əsaslı surətdə bərpa edilən binanın yaxın günlərdə istifadəyə hazır olması göstərilən diqqət və qayğının bariz nümunəsidir.

**Səadət ƏLİYEVA**

## "Naxçıvan" Universitetinin qəbul planına yeni ixtisaslar daxil edilib



*Müasir tədris standartlarına cavab verməsi və təhsilin səviyyəsi ilə seçilən "Naxçıvan" Universitetində 2020-2021-ci tədris ili üçün bakalavr səviyyəsində 410 yer, magistratura səviyyəsində 21 yer tələbə qəbulu planı nəzərdə tutulur.*

Bakalavr səviyyəsində kadr hazırlığı aparılan Azərbaycan dili və ədəbiyyat müəllimliyi, Coğrafiya müəllimliyi, Tarix müəllimliyi, Xarici dil müəllimliyi (ingilis dili), Beynəlxalq münasibətlər, Dinşünaslıq, Filologiya (alman dili və ədəbiyyatı), İqtisadiyyat, Mühasibat, Maliyyə, Turizm işinin təşkili ixtisasları ilə yanaşı, qəbul planına yeni ixtisaslar da daxil edilib. Bu ildən universitetdə Beynəlxalq ticarət və logistika, İnformasiya texnologiyaları, Kompüter mühəndisliyi, Tərcümə (ingilis dili), Riyaziyyat müəllimliyi ixtisasları üzrə də qəbul aparılacaq. Magistratura səviyyəsində qəbul aparılan Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası və metodologiyası, Xarici dilin tədrisi metodikası və metodologiyası, Riyaziyyat fənninin tədrisi metodikası və metodologiyası, Coğrafiya fənninin tədrisi metodikası və metodologiyası, Pedaqogika nəzəriyyəsi və tarixi ixtisasları ilə yanaşı, bu il İqtisadiyyatın tənzimlənməsi, Bank işi, İslamşünaslıq, Dinin fəlsəfəsi, Dilşünaslıq (ingilis dili) ixtisasları da qəbul planına əlavə edilib.

Qeyd edək ki, yüksəkixtisaslı kadr hazırlığı aparmaq üçün "Naxçıvan" Universiteti kifayət qədər maddi-texniki baza və kadr potensialına malikdir. Yeddi binadan və yardımçı qurğulardan ibarət müasir universitet şəhərciyində arxitektura və pedaqoji baxımdan mükəmməl tədris korpusları, yüksək zövqlə dizayn edilmiş mühazirə və məşğələ otaqları, kabinə və mərkəzlər mövcuddur. Təlim prosesində ən son modifikasiyalı texnologiyalardan istifadə olunur.

Universitet dünyanın 51 ali təhsil müəssisəsi ilə əməkdaşlıq edir.

***"Naxçıvan" Universitetinin mətbuat xidməti***

***Muxtar respublikamızın iqlim zənginliyi eyni fəsildə bir məhsulun müxtəlif qısa fasilələrlə yetişməsinə imkan verir. Məsələn, Naxçıvan şəhərində yetişən hər hansı bir məhsulun digər yaşayış məntəqələrində hasilə gəlməsi bəzən 15-20 gün çəkir. Bu da Naxçıvan bazarına mərhələli şəkildə məhsul çıxarılmasına imkan verir. Belə kənd təsərrüfatı məhsullarından biri də may ayında yetişən göycədir. Bu meyvə may ayında bazara çıxarılan əsas məhsuldur. Naxçıvanda ilk olaraq bazarda, əsasən, şəhərin "Çuxur" adlanan məhəlləsindən gətirilən göycələr satılır. Ümumiyyətlə, bu məhəllədə yetişdirilən göycə adla deyilir.***

*Xalq təqvimi*

## May ayında Naxçıvanın təsərrüfat həyatı

1960-70-ci illərə qədər Naxçıvan bağlarında göycə, demək olar ki, çox az idi. Sadəcə, nisbətən şirin, bir qədər sulu alçalara göycə deyərdik. Əvvəllər göycə ağaclarına ən çox Babək qəsəbəsi ətrafında, Şıxmahmud kəndində rast gəlinirdisə, indi bu meyvə, demək olar ki, muxtar respublikamızın bütün bölgələrində yetişdirilir. Mayın əvvəllərindən başlayaraq ayın 20-25-nə, bəzən isə sonuna qədər bazarın əsas alqı-satqı məhsulu göycə olur. Maraqlıdır ki, Azərbaycanın digər rayonlarında əkilən göycə Naxçıvanda yetişən məhsulun dadını vermir.



Göycə təzə halda yeyildiyi kimi, turşuya da qoyulur. Naxçıvanda toy məclislərindəki süfrələrdə göycə turşusu əsas yer tutur. Göycəni tam yetişməmiş vaxtı qaynar və duzlu suda pörtlədib qurutduqda kəhrəba kimi şəffaf çərəz alınır. Milli mətbəximizə aid dolma, küftə kimi yeməklərin, plovun qarasının (üz-göz) hazırlanmasında göycə qurusundan istifadə olunur.

May ayı arıçılıqla məşğul olanlar üçün mühüm aydır. Arıçılar bu ayı "beçə ayı", "beçə dövrü", "pətək ayı" da adlandırırlar. Naxçıvanın aran və orta dağlıq ərazilərində may ayından başlayaraq çiçəklər yetişib şirələnməyə, arılar artıq çiçək tozundan (güləm) şirə, nektar gətirməyə başlayır. Təcrübəli arıçılar söyləyirlər ki, may ayında arılar alaqaranlıqdan hava isinənə qədər güləm, sonra isə şirə gətirir. Müşahidələr göstərir ki, bir çox çiçəklər Günəş çıxandan sonra yumulur, bir də axşamçağı açılır. Aran laləsi və ya xırda xaşxaş laləsi və başqa çiçəklər səhərüzü açılır, Günəş çıxandan sonra ləçəklərini tökür. Görünür, arı da işini təbiətdəki proseslərin ardıcıllığına uyğun planlayır. Şirə gələn kimi arı yeni pətək toxumağa başlayır. Çünki dibdəki pətəklərdən anbar kimi istifadə edir, topladığı ruzini pətəkləri doldurduğu üçün bala (qurd) qoymaq məqsədilə yeni pətəklərə ehtiyac olur. Məlumat üçün deyək ki, arı pətək toxumağa başlamamış beçə vermir. Ona görə də bəzən arıçılar müşahidələrinə əsaslanaraq deyirlər ki, bu il beçə ili deyil.

Bu il havaların soyuq və yağışlı keçməsi ənənəvi xalq təqvimində arıçılıqla bağlı vaxt dəyişikliyinə səbəb olub. Hər ailədə bir ədəd olan ana arı pətəyin gözcüklərinə bala (qurd) qoyur. Bu qurdların içərisində yekə gözcüklərdən erkək arılar, normal gözcüklərdən isə işçi arılar çıxır. Daha böyük bir neçə göz olur ki, bunlar da ana arılar üçündür. Təcrübəli arıçılar qoyulan böyük gözlərə baxanda bəzən deyirlər ki, ana arı dəyişir. Yəni ailədə olan ana arı ya qocaldığına, ya da məhsuldarlığı azaldığına görə yeni ana arı çıxanda pətəkdəki arılar əvvəlki ana arını öldürürlər. Yeni çıxan ana arılar özləri ilə bir dəstə arı götürərək yeşikdən çıxırlar ki, buna "beçə" deyirlər. Bir beçə dəstəsində 4-5 ana arı olur. Sonradan arılar seçib birini saxlayır, qalanını öldürürlər. Yeşikdən çıxan beçə yaxınlıqdakı kol və ya ağacların üstünə düşür. Bir-iki saat ərzində beçə tutulub yeşiyə, səbətə salınmazsa, uçub hara gəldi gedə bilər. Bəzən elə olur ki, beçə yaxınlıqda olan, hətta kənarda digər arıçıların qoyduğu boş yeşiyə girib məskən salır. Arı ailəsindən beçənin çıxması arı ailəsini zəiflədir. Vaxtilə arılar səbətlərdə bəslənildiyi üçün arı ailəsinə nəzarət etmək olmurdu. İndi isə arı ailəsi yeşiklərdə saxlanıldığı üçün nəzarət asanlaşıb. Bəzi arıçılar beçənin çıxmasını, arı ailəsini nəzarətdə saxlayır, qoyulan ana gözləri doğrayıb tökürlər. Bu, çox zəhmət tələb edir.

Bəzən arı ailəsində olan ana gözlər fərqli böyüdüyünə görə, bir və ya bir neçə gün ərzində eyni ailədən bir neçə kiçik dəstələrlə beçə ayrılır. Belə dəstələrdəki beçə tutulub ayrı yeşiyə yerləşdirilir. Yeşiyə bir neçə boş və mümkünsə, bir ədəd bal olan çərçivə qoyulur. Bu olmadıqda beçəyə bir neçə gün şirə (şərbət) verilir ki, özünü toplasın. Bəzən arıçılar beçənin çıxmasını, arı ailəsinin zəif düşməsini istəmədikdə beçə dəstəsini ağ parçanın üstünə çırpır, ana arıları seçib öldürürlər. Bu zaman beçədə olan arılar ayrılıb çıxdığı ailəyə qayıdır. Yağıntılı illərdə gül-çiçək çox olduğu üçün arı üç dəfə beçə verə bilir. Onlar sırası ilə "şahbeçə", "ortabeçə" və "xorabeçə" adlanır. Arı ailəsinin sayını artırmaq istəyən hər bir arıçı bir neçə dəfə beçə çıxmasını arzulayır.



May ayının əvvəllərindən üzümçülüklə məşğul olan təsərrüfatçılar üzüm bağlarını belləməyə başlayırlar. Bu zaman həm də üzüm tənəklərinin yarpaqlarının yığılma vaxtıdır. Bağdan yalnız öz ehtiyacı üçün yarpaq toplayan ailələr bellənəni bir qədər ləngidir ki, bellənmiş bağ sonradan – yarpaq dərərkən ayaqlanmasın. Satış məqsədi üçün isə ailələr yarpağı öz kövrəkliyini itirənə, yəni qartlaşana, uc yarpaqlar inkişafdan düşənə qədər toplayırlar. Təbii ki, üzüm yarpağından bişirilən dolma əvəzsizdir. Yarpaqlar təzə halda yeyildiyi kimi, şorabaya qoyulur, quru halda duzlanıb qablara yığılır, qışa saxlanılır.

May ayı heyvandarlıqda da görüləcək bəzi işlərin əsas vaxtı hesab olunur. Qoyunların qırxımı bu ayda aparılır ki, istidən və müxtəlif həşəratlardan əziyyət çəkməsinlər. Ayın əvvəlindən quzular, bir qədər sonra isə sağmal qoyunlar qırxılmağa başlanılır. Qoyunlar elə vaxt qırxılır ki, mayın axırı və yaxud iyun ayının əvvəli sürülər yaylağa qalxanda heyvanların bədəni bir qədər yun ilə örtülmüş olsun ki, yaylaqdakı soyuqdan qorunsunlar. Xalq inancına görə, sağmal qoyunlar qırxılanda südünü azaldır.

May ayının 15-dən sonra qızılgül açar, həmərsin, qoyungözü çiçəkləməyə başlayır. Naxçıvanda gülçülük qədim ənənələrə söykənir. Qızılgüldən alınan gülab, gül mürəbbəsi (gülqənd, gülməşəkər) hər bir ailənin zəruri qış azuqəsinə çevrilib.

May ayında həm də dağlarımızda bitən və qış şorabasının əsasını təşkil edən, Naxçıvanın nübar məhsulu kimi hər zaman əl-əl axtarılan, ən qiymətli sovqat kimi ölkəmizin digər bölgələrində yaşayan həmvətənlərimizə göndərilən bolu, çaşır, baldırğan, sobu, çöl kəvəri, cacıq özəyi toplanır. Bir sözlə, zəngin təbiəti, təmiz havası və suyu, ekoloji saf məhsulları olan qədim Naxçıvan torpağı may ayında bar-bəhəri ilə seçilir.

**Zaleh NOVRUZOV**

## *"Ölülər və dəlilər"* tamaşasının onlayn nümayişi maraqla qarşılanıb



***Dünən Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında görkəmli yazıçı Cəlil Məmmədquluzadənin dram əsərləri əsasında hazırlanmış "Ölülər və dəlilər" tamaşası onlayn formatda izləyicilərə təqdim olunub.***

Böyük demokratın "Ölülər", "Dəli yığıncağı", "Ər" komediyaları və "Anamın kitabı" dram əsəri əsasında hazırlanan "Ölülər və dəlilər" tamaşasının ssenari müəllifi Azərbaycan Respublikasının Əməkdar artisti Tofiq Seyidovdur. Səhnə əsərində ədibin 4 pyesindəki obraz və personajlar səhnəyə gətirilib.

Səhnə əsərində problemlərə dəlilik, dirilik, ölülük kontekstindən yanaşmaq təkcə milli yox, həm də qlobal xarakter daşıyır və sonda "Həqiqi ölü və dəli kimdir?" sualına cavab tapmağa kömək edir.

Tamaşada Azərbaycan Respublikasının Xalq artisti Həsən Ağasoy, Azərbaycan Respublikasının Əməkdar artistləri Tofiq Seyidov, Əli Əliyev, Bəhruz Haxverdiyev, Əbülfəz İmanov və teatrın gənc yaradıcı qüvvələri rol alıblar. Uğurlu səhnə əsərinin quruluşçu rejissorları Azərbaycan Respublikasının Əməkdar artistləri Tofiq Seyidov, Nurbəniz Niftəliyeva, quruluşçu rəssamı Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Səyyad Bayramov, musiqi tərtibatçısı Ariz Ağayev, rejissor assistenti Zakir Fətəliyevdir.

Qeyd edək ki, Naxçıvan Dövlət Televiziyasının efirində və Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin internet resurslarında canlı yayımlanan tamaşa izləyicilər tərəfindən maraqla qarşılanıb.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## Suvarılan torpaq sahələrinin xəritələri nəşr olunub




Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti tərəfindən muxtar respublikanın bütün şəhər və rayonları üzrə suvarılan torpaq sahələrinin xəritələri toplu şəklində nəşr olunub.

Xəritələr üzərində ərazilərin su təminatının yaxşılaşdırılması məqsədilə çəkilmiş suvarma xətləri, yeraltı və yerüstü kanallar, eləcə də çaylar, göllər, su anbarları və digər hidroqrafiya elementləri şərti işarələrlə əks olunub. Nasos stansiyaları, drenaj xətləri qeyd edilib, şəhər və rayonlar üzrə suvarılan, qapalı suvarma şəbəkəsi qurulmuş və qapalı suvarma şəbəkəsinin tikintisi aparılan torpaq sahələri göstərilib. Ümumi suvarılan torpaq sahələrinin, mütərəqqi suvarma şəbəkələrinin qurulması ilə əkin dövriyyəsinə qatılmış torpaq sahələrinin əhatə etdiyi ərazilərin rəqəmlərlə ifadəsi verilib.

Yüksək poliqrafik göstəricilərlə nəşr olunan toplu, ümumilikdə, 31 xəritədən ibarətdir.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti***

## Dezinfeksiya işləri davam etdirilir



Virus infeksiyalarına qarşı qabaqlayıcı tədbirlər çərçivəsində ötən günlərdə olduğu kimi, may ayının 19-da da Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin xüsusi qurğularla təchiz edilmiş yanğınsöndürmə avtomobilləri vasitəsilə Naxçıvan şəhərində avtomobil yolu və səkilər daxil olmaqla, 310 min kvadratmetr sahə, eləcə də təyin olunmuş dezinfeksiya qrupları tərəfindən Heydər Əliyev Muzeyinin və Naxçıvan Dövlət Musiqili Dram Teatrının ətrafı, Saat qülləsi, Əlahiddə Ümumqoşun Ordunun hərbi şəhərciyi və 52-ci məhəllədə yerləşən parklar dezinfeksiya edilmişdir.

Həmçinin Dövlət Baytarlıq Xidmətinin xüsusi təyinatlı avtomobilləri və dezinfeksiya qrupları cəlb olunmaqla Atabəylər məhəlləsi, Heydər Əliyev prospekti, "İstiqlal" və Sabir küçələrində, ümumilikdə, 55 ictimai yaşayış binasının girişləri, ətrafı və zirzəmisi dezinfeksiya edilmişdir.

Qeyd edək ki, bu tədbirlər çərçivəsində Naxçıvan şəhəri ilə yanaşı, muxtar respublikanın digər rayon və şəhərlərində də dezinfeksiya işləri intensiv olaraq davam etdirilir.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

## Hüquqi maarifləndirmə gününün tələbidir

***Sual:** Mənzillərdə gecə vaxtı səs-küy salan şəxsləri hansı cəza gözləyir?*

**Cavab:** Bəzi hallarda vətəndaşların gecə vaxtı məişət səs-küyünə görə istirahət hüququ pozulur. Bu da, haqlı olaraq, narazılığa səbəb olur. Bu kimi halların qarşısını almaq üçün qanunvericilikdə məsuliyyət nəzərdə tutulur. Belə ki, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinə əsasən mənzillərdə, yaşayış evlərinin girişlərində və həyətlərində, küçələrdə, istirahət yerlərində və digər ictimai yerlərdə gecə vaxtı saat $24^{00}$-dan $7^{00}$-dək səs-küy salmağa, ucadan mahnı oxumağa, musiqi alətlərini ucadan çalmağa, televizorları, radioqəbuledicilərı, maqnitofonları və digər aparatları gur səslə oxutmağa, məişət səs-küyünə qarşı mübarizə tələblərini başqa üsulla pozmağa görə fiziki şəxslər yüz əlli manatdan iki yüz manatadək məbləğdə, vəzifəli şəxslər iki min manatdan iki min beş yüz manatadək məbləğdə cərimə edilir.

***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsi***

**İtmişdir**

Şərur rayonunun Cəlilkəndində yaşamış Qənbərov Hüseyn Əli oğlunun adına olan JN-461 inventar nömrəli 10204018 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 371